**PEDAQOGİKA**

**UOT 371**

# AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL STRATEGİYASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN PRİORİTETLİYİ

**Mehriban SƏRDAROVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 8 noyabr 2025; çapa qəbul edilmişdir: 25 noyabr 2025; online-da çap edilmişdir: 17 dekabr 2025.

Received: 8th of November, 2025; accepted: 25th of November, 2025; published online: 17th of December, 2025.

**Açar sözlər:** *milli təhsil strategiyası, Azərbaycan təhsili, Heydər Əliyev, milli-mənəvi dəyərlər, azərbaycançılıq, milli təhsilin qaynaq mənbələri*

## Giriş

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri çoxsahəliliyinə və əhatə dərəcəsinin genişliyinə görə ayrı-ayrı rakurslardan tədqiq edilməyə böyük imkanlar açmış və açmaqdadır. Bu, həm də ona görədir ki, Azərbaycan dövlətçiliyinin ən yeni tarixi Heydər Əliyevin təcrübi irsinin tarixidir. Dövlət quruculuğunun bütün sahələri üzrə strategiyaların və fundamental konsepsiyaların müəllifi olan Heydər Əliyevin milli ideyaları zaman-zaman aktuallığını qorumaqdadır. Çünki nəinki öz zamanının, həm də gələcəyin böyük şəxsiyyəti statusuna malik olan Ulu Öndərin ideyaları Azərbaycanın müstəqilliyinin, suveren dövlət kimi inkişafının və möhkəmləndirilməsinin təməl prinsipləri kimi çıxış edir.

Heydər Əliyevin: *"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır"* (6) fikir-şüarı daxilində təhsil strategiyasının hansı ideyalarla zənginləşdirilməsini də nəzərdə tuturdu.

Təhsilşünas rəhbərin 1993-cü ildən başlayaraq, Azərbaycan təhsilinin hansı istiqamətdə inkişafı ilə bağlı fikirlərinin, çıxışlarının tədqiqindən belə bir qənaət hasil olur ki, Azərbaycan Respublikasının təhsil strategiyasının milli ideyalarla zənginləşdirilməsi özü bir strateji hədəf kimi çıxış edir. Ulu Öndərin bu istiqamətdəki irsində Azərbaycan xalqının milli ideyasını, milli dəyərlərini özündə əks etdirən təhsil qaynaqlarını əldə rəhbər tutmaq zərurəti milli dövlətçiliyin davamlı qorunması məsələsi kimi çıxış edir. Heydər Əliyevə görə, bir-birini əvəzləyən nəsillərin milli ideologiyaya yiyələnməsi bu gün ideoloji əsaslarını müəyyənləşdirdikləri təhsildən başlayır və bu işin düzgün təşkili dövlətçilik üçün həyati əhəmiyyətə malikdir.

Burada Heydər Əliyevin çağdaş tariximizin bütövlüyünün, kəsilməzliyinin təmin edilməsində mühüm yerə malik ideyalarından birindən – milli-mənəvi dəyərlərimizin milli təhsil quruculuğundakı prioritetliyindən bəhs edilir.

## 1. Heydər Əliyevin təhsil irsində milli-mənəvi dəyərlərin prioritetliyi

Azərbaycan dövlətçiliyinin ən yeni tarixinin yaradıcısı, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin zəngin təmayüllü quruculuq fəaliyyətində nəzəri və təcrübi təhsil

[*] *doktorant, Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*e-mail:* mehribanserdarova@mail.ru
*Orcıd*: https://orcid.org/0009-0000-8876-7051
https://doi.org/10.30546/25194011.2025.14.5.3076

irsinin ehtiva olunduğu milli təhsil strategiyası xüsusi yer tutur.

Haqlı sual yarana bilər ki, Heydər Əliyevin sovet ideologiyasının hakim olduğu birinci dövr təhsil siyasətində milli təhsil barədə qənaət irəli sürmək absurd deyilmi? Lakin həmin illərdə Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə Azərbaycanın siyasi-iqtisadi, sosial-mənəvi həyatının bütün sahələrində miqyasına və istiqamətinə görə totalitar şəraitin sədlərini aşan, milli zəmində bünövrəsi qoyulan proseslər bu qənaəti doğruldur. Daha dəqiq desək, sovet rejiminin sərt məngənəsi, əcdadlarımızdan miras qalan tarixi təhsil ideyalarımıza qarşı reqressiv münasibət şəraitində milli təhsil ideyalarının canlandırılması, inkişaf etdirilməsi, zənginləşdirilməsi milli təhsil tariximizdə xüsusi bir mərhələ təşkil edir.

Həmin dövr ölkəmizin həyatının bir-birindən fərqli müstəvilərinin inkişaf tarixinə nəzər yetirsək, görünəcək ki, Ulu Öndər xüsusi cəsarət və cürət tələb edən bu prosesləri bir konsepsiyaya əsaslanıb həyata keçirir. Ədəbi-tarixi prosesə, milli ideyanın dirçəldilməsinə söykənən bu konsepsiya tarixin gedişatını dəyişdirməyə qadir olmaqla, həm də bugünkü yenilməzliyimizin əsasını təşkil edir. Təhsilə son məqsəd, nəticə kimi deyil, vasitə kimi baxan təhsilşünas rəhbərin müəllifi olduğu böyük dirçəliş və inkişaf konsepsiyasında milli təhsil strategiyası xüsusi çəkiyə malikdir.

Müasir milli təhsil strategiyasının bünövrəsinin qoyulduğu 1969–1982-ci illər sovet dövlət quruculuğu adı ilə milli dövlətçilik rəmzlərinin reqressiyaya uğradılması, milli ideyanın və daşıyıcılarının repressiyaya və təqiblərə məruz qalması, Azərbaycanın mərkəzi Moskva üçün aqrar ölkəyə çevrilməsi ilə xarakterizə olunan yarım əsrə yaxın bir dövrdən sonra təhsil tariximizə inqilabi yüksəliş, intibah hadisəsi kimi daxil olub. Heydər Əliyev xalqın milli mənlik ruhunun canlanmasını, dirçəldilməsini, özünüdərk və soy-kökə qayıdışının təmin edilməsini, milli əqidəyə yiyələnməsini milli mənəviyyat hadisəsi kimi qəbul edir, bunların xalqda formalaşdırılmasını özünəməxsus təhsil siyasəti ilə həyata keçirirdi. Heydər Əliyevə görə, təhsilin bilik vermək vəzifəsindən daha uca missiyası xalqın milli kimliyini və mənəvi dəyərlərini yaşatmaq istiqamətindəki işidir. Hələ o dövrdən təhsili millətin gələcəyi hesab etməklə onun milli zəmində inkişaf etdirilməsini, milli-mənəvi dəyərlərin qorunmasını, milli dəyərlərin gələcəyin əsas dayağı kimi formalaşdırılmasını ön plana çəkirdi.

Ulu Öndər ana dilini milli kimliyin əsas şərti saymaqla, milli-mənəvi dəyərləri yaşadan başlıca qüvvə hesab etmişdir. Onun Azərbaycanda siyasi fəaliyyətinin birinci dövründə ana dilində təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması, milli pedaqoji və elmi-pedaqoji kadr hazırlığında düşünülmüş strategiya və taktikanın həyata keçirilməsi, xalqın mənəvi təkamülündə, gəncliyin milli özünüdərkində milli ədəbiyyatımızın yerini bilərək, ona xüsusi qayğının göstərilməsi, ədəbiyyat yaradıcılığında Azərbaycan dilinin aparıcı dil olması, Azərbaycan dilinin tarixinin o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılması, müasir Azərbaycan dilinə aid çoxcildli kitabların yazılması, ali məktəblər üçün ana dilində dərsliklərin tərtibi və onların Azərbaycan Dövlət Mükafatına layiq görülməsi, ana dilini araşdıran alimlərin əməyinin yüksək qiymətləndirilməsi və s. (1, s. 131) onun dövlətçilik-milli ideologiya-milli təhsil triadasının təməl cövhəri kimi çıxış edir.

1970-1982-ci illərdə ölkəmizdə böyük ədəbi-tarixi şəxsiyyətlərin ideallarının təbliğinə, özünüdərk proseslərinin dərinləşdirilməsinə, vətənpərvərlik ideyalarının genişləndirilməsinə yönəlmiş milli siyasət proqramı yeni nəslin vətənpərvərlik ruhunda böyüməsində, milli-mənəvi dəyərlərimizi mənimsəməsində, milli zəminli dünyagörüşlərinin formalaşmasında təzahür edir. Təsadüfi deyildir ki, həmin illərdə ideya mövzusunun zənginliyi, rəngarəngliyi, milli prioritetliyi ilə seçilən, bu gün də xüsusilə sevilən bədii nümunələrin yaranması Ümummilli Liderin Azərbaycan gəncliyinin milli özünüdərk tərbiyəsində mühüm xidmətlərindən biri olmaqla, heç şübhəsiz, həm də milli təhsil siya-

sətinin tərkib hissəsidir.

Obrazlı desək, sovet ideologiyasının milli yaddaşımızın dondurulması istiqamətindəki siyasətində Heydər Əliyevin milli-mənəvi dəyərlərimizin qorunmasını reallaşdıran ana dili strategiyası məşhur “Ey türk, titrə, özünə dön!” tezisi kimi çıxış etməklə özünədönüşü, soy-kökə qayıdışı heykəlləşdirir, əcdadlarımızdan gələn və ruhumuzda yer tutan müqəddəs közü alovlandırır.

Tədqiqatın obyektindən kənara çıxmamaqla Heydər Əliyevin siyasi fəaliyyətinin I dövründə Azərbaycanda milli ruhun canlanmasında verdiyi töhfələri yuxarıda gətirdiyimiz ümumi faktların nümunəsində göstərməkdə məqsəd həmin dövrün II dövr fəaliyyətinin şərti olmasını əsaslandırmaqdan ibarətdir. Təsadüfi deyildir ki, milli-mənəvi dəyərlərimizin qorunmasını o illərdə ana dilinin ictimai-siyasi nüfuzunun yüksəldilməsinin tərkib hissəsi kimi çıxış etməsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə bağlı verdiyi fərman və sərəncamlarda dəfələrlə vurğulayır.

Beləliklə, Heydər Əliyevin Azərbaycanda I dövr rəhbərliyində təhsil siyasəti müəyyən istiqamətlərlə milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi kimi təzahür edir. Ümumiyyətlə, araşdırmalarda ən yekdil qənaət Heydər Əliyevin siyasət aləmində ən böyük xidmətinin müstəqil Azərbaycan dövlətinin özülünün və əsas sütunlarının qurulması, inkişafa, yüksəlişə istiqamətləndirilməsi kimi qəbul edilir.

## 2. Heydər Əliyev və Azərbaycan Respublikasının Təhsil strategiyasının milli ideyalarla zənginləşdirilməsi

Azərbaycan Respublikasının milli təhsil strategiyasının tədqiqindən belə bir nəticə çıxarmaq mümkündür ki, o, Ulu Öndər Heydər Əliyevin milli ideologiya konsepsiyasının mühüm komponentlərini ehtiva etməklə böyük bir ideologiyanın – azərbaycançılıq ideologiyasının təzahürüdür.

Azərbaycanın seçdiyi, həyata keçirdiyi siyasi kursun beynəlxalq aləmdə tutduğu mövqe dövlətimizin milli ideologiyasının başlıca komponentlərinin, əsas istiqamətlərinin uğurla gerçəkləşdirilməsinin nəticəsidir.

Artıq 32 ildir ki, Azərbaycan Respublikasında davam etdirilən vahid siyasi kurs və tədqiqatın I hissəsində göstərilən faktlar deməyə əsas verir ki, bu kurs ölkəmizdə 1969-cu ildən Ulu Öndər Heydər Əliyevin milli ideya axtarışlarının sağlam təməlləri üzərində qurulmuşdur.

Heydər Əliyevə görə, bir-birini əvəzləyən nəsillərin milli ideologiyaya yiyələnməsi bu gün ideoloji əsaslarını müəyyənləşdirdikləri təhsildən başlayır və bu işin düzgün təşkili dövlətçilik üçün həyati əhəmiyyətə malikdir.

Heydər Əliyev göstərir ki, *“Müstəqil dövlət olmaq üçün xalqın gərək mentalitet səviyyəsi olsun. Xalqın mentalitetini qaldırmaq isə bir-iki günün işi deyil. Bir çox nəsillərin işidir, bununla məşğul olmaq lazımdır”* (2, s. 159). Və xalqın kökünün düzgün müəyyənləşdirilməsi, zəruri qaynaq mənbələrinin quruculuq işində rəhbər tutulması, mənəvi-əxlaqi dəyərlərinin qorunması və adət-ənənələrinin haqqa, ədalətə, humanist ideyalara söykəndiyinin ümumbəşəriliyinin göstərilməsi Ulu Öndərin xalqa, dövlətə, dövlətçiliyə “ən böyük xidmətinin” mühüm tərkib hissəsidir.

Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi fəaliyyətində əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlərin qorunması milli mövcudluğumuzun sərhədlərini aşaraq, siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantı kimi çıxış edir. Dövlətin ən əsas funksiyalarından biri də milli-mənəvi varlığımızın qorunub saxlanması kimi müəyyənləşir. Buna görə də millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri: dil, din, folklor, milli-mənəvi dəyərlərin vahid bir ideya ətrafında sıx surətdə birləşməsi ən vacib dövlətçilik məsələsi kimi çıxış edir. Milli ideologiyanın ya-

radılması və onun müstəqil dövlətin prinsipləri kimi irəli sürülməsi Azərbaycan ziyalıları, o cümlədən təhsil cameəsi qarşısında başlıca vəzifə hesab edilir.

Milli ideologiya konsepsiyasının yaradılması və burada milli-mənəvi varlığımızın bütün təzahürlərinin dövlətçilik mənafeyi kimi çıxış etməsi, şübhəsiz ki, təhsil sahəsinin də milli məqsədlər, mənafelər əsasında qurulmalı olması Heydər Əliyevin milli təhsil siyasətinin dövlətçilik əhəmiyyəti kimi təzahür edir. Çünki Heydər Əliyevə görə, *"Elm, təhsil, mədəniyyət sahəsində əldə etdiyimiz nailiyyətlər, Azərbaycan xalqının bugünkü yüksək təhsil, elm, mədəniyyət səviyyəsi, şüur səviyyəsi - bunların hamısı ilk növbədə müəllimlərin, məktəbin səyi ilə olub, onların xidmətlərinin nəticəsidir"* (3, s. 174).

Dövlətçilik prinsiplərinin həyata keçirilməsində təhsili mühüm qüvvə hesab edən Ulu Öndər yalnız təhsil işçilərinə böyük ümidlər bəslədiyini dönə-dönə vurğulayır. *"İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir"* çağırışında göstərir ki, müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilən quruculuq işlərinin öhdəsindən yalnız alimlərimizin, müəllimlərimizin, təhsil sahəsində ixtisaslaşmış institutların gələ biləcəyini güman edir (3, s. 174).

Bununla belə, müəyyən tapşırıqları da bəyan etməyi unutmur, bildirir ki, bu tədbirlər tədbir xatirinə, müəyyən bir dəyişiklik aparmaq xatirinə yox, yalnız və yalnız təhsili düz yolla aparmağa, xalqımızın gənc nəslin intellektual inkişafına, tərbiyə etməyə, müstəqil dövlətin prinsipləri əsasında inkişaf etdirməyə yönəldilməlidir (3, s. 175).

Milli ideologiyamızın konsepsiyasını qurmaq, onu tarixi keçmişimiz, milli, mədəni, dini ənənələrimiz üzərində yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək, düşünən beyinlərimizi, alimlərimizi, o cümlədən təhsil sahəsində çalışan müəllim ordusunu milli ideologiyamızın formalaşması üçün fəaliyyət göstərməyə cəlb etmək, bu baxımdan məktəblərdə gözləmədən çox iş görməklə bağlı mühüm qərarlar təsadüfi deyildir ki, ilk dəfə təhsil işçiləri ilə görüşdə qəbul edilir. Bu baxımdan 31 avqust 1994-cü ildə Heydər Əliyevin Bakı şəhərinin təhsil işçiləri ilə görüşdə səsləndirdiyi fikirlər (3, s. 169-182) dövlətçilik ideologiyası proqramının müddəaları kimi çıxış edir.

Burada tariximizin ədəbiyyatımızda, ədəbiyyatın doğma dildə tədrisi kimi konseptual əhəmiyyətli məsələlərdən ətraflı bəhs edəndə də eyni ciddi vəzifələri təhsil işçilərinin qarşısına qoyur. Digər tərəfdən də, bu məsələni təkcə təhsil işçilərinin vəzifəsi kimi məhdudlaşdırmır, təhsil sahəsi ilə bağlı akademik səviyyəli alimləri, mütəxəssisləri bu dövlətçilik, milli təhlükəsizlik əhəmiyyətli məsələyə cəlb edir.

## 3. Dövlətçilik və milli-mənəvi dəyərlər

Milli ideologiyanın dövlət quruculuğunun, o cümlədən təhsil quruculuğunun təməl prinsiplərindən biri kimi bərqərar olması yalnız təhsillə bağlı məsələlərdə, görüşlərlə bitmir. Yuxarıda da qeyd etdiyimiz kimi, təhsilimizin milli-mənəvi dəyərlərlə zənginləşdirilməsi, bununla bağlı ideyaların əsasən azərbaycançılıq ideologiyası kontekstində inkişaf etdirilməsi önəmlidir. Ümummilli Liderin milli-mənəvi dəyərlərlə bağlı qiymətli fikirlərindən (6) mahiyyətləri üzə çıxaranda da görürük ki, dövlətimizin milli ideologiyasının təməl prinsipləri "azərbaycançılıq" adı ilə xalqımızın oturuşmuş milli-mənəvi təfəkkürünə əsaslanır.

Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturuna daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi.

21 noyabr 1998-ci il tarixində Yeni Azərbaycan Partiyasının 6-cı ildönümü münasibəti ilə Respublika sarayında keçirilən, bütün dövlət strukturlarının iştirak etdiyi təntənəli yığıncaqda Ulu Öndər həm xarici, həm daxili siyasətdə, həm ictimai-siyasi, həm sosial-iqtisadi sahədə gördüyümüz işlərin milli ideologiyanın üzərində qurulmasını bəyan edir və onun məzmununu, milli ideologiyanın məhz nədən ibarət olmasını çoxmilyonluq auditoriyaya aydınlaşdırır. Göstərir ki, milli ideologiyamız ən əvvəl dövlətçilikdir:

*"Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir"* (4, s. 244).

Və əsas məsələ: dövlətçilik tərbiyəsi işinə məsul olan qüvvə burada müzakirə müstəvisinə gətirilir. Əlbəttə, təhsilşünas rəhbərin fikirlərindən aydın olur ki, aparıcı qüvvə olaraq təhsil, dövlətin himayəsi ilə hər bir vətəndaşa dövlətçilik tərbiyəsi aşılamalı, inkişaf etdirməli, onlarda milli vətənpərvərlik hissləri yaratmalıdır (4, s. 244).

Burada Heydər Əliyev milli-mənəvi dəyərlərimizi milli ideologiyamızın ikinci əsas komponenti kimi təqdim edir və konseptual əsaslı fikirlərini bildirir. Milli-mənəvi dəyərlərimizin milli identikliyimizin əsas göstəricisi olmasını, əsrlər boyu xalqımızın həyatında, yaşayışında, fəaliyyətində formalaşmasını diqqətə çatdırır, yalnız milli-mənəvi dəyərlərin milləti həqiqi millət, xalq təyin edə bilməsini vurğulayır. Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsas qaynaqlarından birinin də Qurani-şərif olduğunu yenidən xalqın diqqətinə təqdim edir. Bununla belə, Azərbaycanın mütəfəkkir insanlarının, mütərəqqi insanlarının, böyük şəxsiyyətlərinin, hörmətli siyasi və dövlət xadimlərinin, mədəniyyət xadimlərinin Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin yaradılmasında rolunu da unutmur, xüsusi qeyd edir. Onu da qeyd edək ki, Heydər Əliyev bu qənaətini başqa tədbirlərdə də önə çəkir. O, milli təhsil ideyalarının formalaşmasında pedaqoji fikir ustadlarının irsini yüksək dəyərləndirərək göstərir ki, XX əsrdə bizim qazandığımız uğurların, müstəqil milli dövlət yaratmaq əzmimizin əsaslarını tariximizin bütün qatlarında axtarmalıyıq. Təhsilimizin müdrik bilicisi Heydər Əliyev, əsasən, XIX əsr mühitində formalaşmış və təşəkkül tapmış qaynaqları xüsusilə əhəmiyyətli hesab edir, milli maarifçilik ideyalarının ayrı-ayrı görkəmli şəxsiyyətlərin çox uğurlu yaradıcı fəaliyyətində öz əksini tapdığını nəzərə çatdırır. Bu irsi axtarıb tapmağı tövsiyə edir (5, s. 224).

Problemlə bağlı belə faktlar Heydər Əliyevin milli təhsil quruculuğu irsində kifayət qədər genişdir, onların hamısını bu yazı çərçivəsinə sığışdırmaq mümkün də deyil. Sadəcə bu yanaşmalardan aydın olur ki, Heydər Əliyevə görə, milli ideologiyanın əsas tərkib hissələri, bir tərəfdən, milli dövlətçilik, digər tərəfdən, milli-mənəvi dəyərlərdir. Dövlətçilik ideologiyası insanların bir vətəndaş kimi formalaşdırılmasını, Vətənə sevgi hissini, dövlət mənafeyini üstün tutmaq, şəxsi mənafeyi dövlət mənafeyi prizmasından keçirmək vəzifələrini əhatə edir.

Milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqəni Ulu Öndər *"milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz"* (7) tezisi şəklində irəli sürür. Heydər Əliyev bu barədə müraciətlərində Azərbaycan xalqının milli dövlətçilik şüurunu təqdir edir və göstərirdi ki, əsrlər boyu milli ideologiyamızın formalaşıb, inkişaf etməsində yaradıcı şəxslər, milli ziyalılığın təmsilçiləri, maarifpərvər alimlər, filosoflar, müəllimlər, yazıçılar iştirak ediblər.

Heydər Əliyevin problemlə bağlı mülahizələrindən aydın olur ki, milli-mənəvi dəyərlər mürəkkəb daxili struktura malikdir. Milli-mənəvi dəyərlərdən çıxışlarında bəhs edən Ulu Öndər bura üç tərkib hissəni daxil edir: dil, din, adət-ənənə və bunların vəhdəti kimi çıxış edən milli mentalitet.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini bütün səviyyələrdə əsas vəzifələrdən biri kimi irəli sürürdü. Göstərirdi ki, bunlarsız millət yoxdur, bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir.

Milli təhsil quruculuğu prosesində çoxsaylı görüş, tədbir, iclas, müzakirə, yığıncaq və s. hər birində milli ideologiyamızın əsas komponentlərindən olan, mürəkkəb daxili struktura malik milli-mənəvi dəyərlərimizin üç tərkib hissəsini – dil, din, adət-ənənə və

bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitetlə bağlı məsələləri xüsusi qeyd edir.

Dilimizin milli dəyərlər daşıyıcılığı Heydər Əliyevin milli təhsil irsində xüsusi yerlərdən birini tutur. Bu baxımdan milli ideologiyamızın formalaşmasında dərsliklərin roluna Heydər Əliyev həmişə xüsusi diqqət yetirirdi və bilavasitə gənclərin kütləvi tərbiyəsi ilə bağlı olduğu üçün buradakı çatışmazlıqlara çox ciddi yanaşırdı. Ümumiyyətlə, Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir, bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi: *"Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz"* (6).

Diqqətçəkən bir məqam da bundan ibarətdir ki, dövlətçilik və milli-mənəvi dəyərlərin sıx vəhdətindən ibarət olan azərbaycançılıq, Heydər Əliyevə görə, milli məndəricədən kənara çıxan, millilik və ümumbəşəriliyin vəhdətindən çıxış edən bir məfkurədir. Bu, Azərbaycan Respublikasının təhsil strategiyasının ümumbəşəri ideyalarla zənginləşdirilməsi prosesində əks olunur. Başqa sözlə, Heydər Əliyev ictimai şüurda sərbəstlik, azadlıq və müstəqillik ideyalarının formalaşdırılmasının da milli qaynaqlardan nəşət tapdığını irəli sürür. Təsadüfi deyildir ki, təhsilin dünya standartlarına uyğunlaşdırılması ilə əlaqədar, təhsil sahəsində ümumbəşəriliyə xidmət edən dövlət siyasətinin əsas prinsiplərindən olan demokratikliyin də yolunun milli mənəviyyatdan keçdiyi baxışına rast gəlirik: *"Demokratiyanın hüdudları genişdir. O, hər bir xalqın milli-mənəvi dəyərlərinə, mentalitetinə, hər bir cəmiyyətin, hər bir dövrün tələblərinə uyğun olaraq inkişaf edir"* (4, s. 339).

Beləliklə, Ümummilli Lider Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun bir milli lider kimi üzərinə götürdüyü missiyaya necə böyük məsuliyyətlə yanaşdığına dəlalət edirdi. Bu baxımdan cəsarətlə demək olar ki, təhsilimizin özünəməxsus milli identikliyi, başqa sözlə, Azərbaycan ruhu ilə, milli ideallarla zənginləşdirilməsi Ulu Öndər Heydər Əliyevin adı ilə simvolizə olunur.

## Nəticə

Beləliklə, Azərbaycan Respublikasının təhsil strategiyasında milli-mənəvi dəyərlərin prioritetliyinin problem kimi tədqiqindən bu qənaətə gəlmək mümkündür ki, təhsili dövlətçiliyi qorumağın əsas vasitəsi hesab edən Ulu Öndər Heydər Əliyev bu işin sarsılmaz xarakter almasını milli ideologiyaya, onun yaranmasına, müəyyənləşməsinə, qorunub inkişaf etdirilməsinə bağlayır.

Dövlətçilik ideologiyasının əsas komponentlərindən olan milli-mənəvi dəyərlərin təhsil siyasətində yerinin tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, o, müasir mərhələdə milli təhsil ideyaları kimi çıxış etməklə Heydər Əliyevin milli təhsil quruculuğu strategiyasının mühüm tərkib hissəsidir. Daima aktual olan bu problem Azərbaycan Respublikasının milli təhlükəsizlik məsələsi kimi bir strateji hədəf rolunda çıxış edir.

## ƏDƏBİYYAT

1. Cəfərov N. Seçilmiş əsərləri. [5 cilddə]. Bakı: Elm, c.4, 2007, 361 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 1, 1997, 606 s.
3. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 2, 1997, 601 s.
4. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 18, 2006, 528 s.
5. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə]. Bakı: Azərnəşr, c. 29, 2009, 520 s.

6. Əliyev H.Ə. Müstəqillik yolu: Seçilmiş fikirlər / S.Xəlilov, Ş.Əsgərov. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
7. Xəlilov S. Heydər Əliyev və müasir mərhələdə milli ideyanın təməl prinsipləri // Xalq qəzeti. 2011, 13 dekabr, s.3-4.

***Резюме***

***Мехрибан Сардарова***

***Приоритет национально-духовных ценностей в стратегии образования Азербайджанской Республики***

В статье рассматривается процесс обогащения стратегии образования Азербайджанской Республики национальными идеями. Анализируется государственная значимость того, что Общенациональный лидер Гейдар Алиев определил национально-духовные ценности азербайджанского народа в качестве одного из ключевых приоритетов в системе образования.

Исследование более чем полувекового этапа развития национальной образовательной стратегии показывает, что независимо от идеологических условий двух различных исторических периодов, приоритет в деле сохранения и укрепления национально-духовных ценностей оставался неизменным. Исторические заслуги Гейдара Алиева в формировании современного подхода к обогащению образовательной стратегии национальными идеями раскрываются на основе анализа широкого круга фактических материалов, аналитической аргументации и представлены в систематизированном виде. Отмечается, что между рассматриваемыми периодами отсутствует жесткая временная граница: отношение Гейдара Алиева к приоритетности национально-духовных ценностей в сфере образования и его многогранная деятельность в этом направлении формируют единую концептуальную линию.

Исследование подтверждает, что усвоение национальной идеологии сменяющими друг друга поколениями начинается именно с образования, идеологические основы которого были заложены Гейдаром Алиевым. Это выступает гарантией не только современной национальной идентичности, но и политического суверенитета и устойчивости государственного строя.

В контексте современной истории образования особое внимание уделяется возрождению, сохранению, развитию и обогащению национальных образовательных идей, основанных на культурно-историческом наследии и духовных ценностях предков, что непосредственно связано с именем Гейдара Алиева.

В статье подчеркивается, что такие элементы национально-духовной системы ценностей, как язык, религия, обычаи и традиции, а также национальный менталитет, рассматриваемый как их органическое единство, по мнению Гейдара Алиева, являются важнейшими условиями сохранения государственной независимости. Формирование высокого уровня национального менталитета – длительный исторический процесс, требующий усилий нескольких поколений. Гейдар Алиев, подчеркивая важность данной задачи, определял сохранение духовно-нравственных ценностей и их отражение в образовательной политике как ключевые принципы развития системы образования.

Гейдар Алиев рассматривал изучение, защиту и развитие национально-духовных ценностей как одну из приоритетных задач на всех уровнях государственного управления и образовательной системы. Он отмечал, что без сохранения этих ценностей не может существовать нация, а народ, сумевший их сохранить, всегда будет способен отстаивать свою независимость.

Концепция национального образования в государственной политике Гейдара Алиева формирует фундамент становления и развития идеи азербайджанства, а также обеспечения образовательной системы государственными принципами. Одновременно она выступает стратегическим ориентиром и важным параметром укрепления современного государственного потенциала.

**Ключевые слова:** *национальная образовательная стратегия, азербайджанское образование, Гейдар Алиев, национально-духовные ценности, азербайджанство, истоки национального образования*

***Summary***

***Mehriban Sardarova***

***The Priority of National and Spiritual Values in the Education Strategy of the Republic of Azerbaijan***

The article examines the process of enriching the educational strategy of the Republic of Azerbaijan with national ideas. It analyzes the state-level significance of the fact that the National Leader Heydar Aliyev identified the national-spiritual values of the Azerbaijani people as one of the key priorities in the field of education.

A study of more than half a century of development of the national educational strategy demonstrates that, regardless of the ideological frameworks of two different historical periods, the priority of preserving and strengthening national-spiritual values has remained unchanged. Heydar Aliyev's historical contributions to shaping the modern approach to integrating national ideas into the education system are explored based on extensive factual materials and analytical reasoning, and are presented in a systematic manner. It is emphasized that there is no rigid boundary between the two historical stages: Aliyev's consistent stance on the priority of national-spiritual values in education and his comprehensive activity in this direction form a unified conceptual framework.

The research confirms that the adoption of national ideology by successive generations begins with education, the ideological foundations of which were established by Heydar Aliyev. This serves not only as a guarantee of contemporary national identity, but also as a foundation for political sovereignty and the stability of statehood.

In the context of modern educational history, special importance is attributed to the revival, preservation, development, and enrichment of national educational ideas based on the cultural-historical heritage and spiritual values inherited from ancestors – an endeavor directly associated with the name of Heydar Aliyev.

The article stresses that such components of national-spiritual values as language, religion, customs and traditions, as well as the national mentality as their organic unity, are regarded by Heydar Aliyev as fundamental conditions for the preservation of state independence. The development of a strong national mentality is a long-term historical process requiring the efforts of many generations. Aliyev, emphasizing the importance of this mission, identified the protection of spiritual and moral values and their reflection within educational policy as core principles of educational development.

Heydar Aliyev viewed the study, protection, and advancement of national-spiritual values as one of the principal objectives at all levels of governance and education. He pointed out that without these values, a nation cannot exist, whereas a people who safeguard their values will always be committed to protecting their independence.

The national education concept within Heydar Aliyev's state-building policy forms the foundation for the establishment and development of the idea of Azerbaijani identity (Azerbaijani nationalism) and for ensuring that the education system is aligned with statehood principles. At the same time, it serves as a strategic goal and an important parameter in strengthening the modern capabilities of the state.


**Key words:** *national education strategy, Azerbaijani education, Heydar Aliyev, national-moral values, Azerbaijaniism, sources of national education*

Redaksiya heyətinin üzvü p.ü.f.d., dos. Səmədov Oqtay Əlipaşa oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.